Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 24-25 (7429-7430) · 1933-cü ildən nəşr olunur · Cümə axşamı, 11 may 2017-ci il. · Qiyməti 40 qəpik


## Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür.

AZƏRTAC xəbər verir ki, xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin xatirəsini ehtiramla anıb.



Azərbaycan Respublikasının Dövlət Himni səslənib.

Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoyublar.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

## IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib

Mayın 5-də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO-nun tərəfdaşlığı ilə Bakıda "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Heydər Əliyev Mərkəzində rəsmi açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı Forumun açılış mərasimində nitq söyləyib.

## Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib

İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak edib.

Müharibə veteranları ilə görüşən Prezident onlara Qələbə günü münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyub, ailə üzvləri ilə görüşüb, onları Qələbə bayramı münasibətilə təbrik edib.

Dövlət başçısı İkinci Dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçib.

Mərasimdə dövlət və hökumət rəsmiləri iştirak ediblər.

## Uğurlarımızın əsası Heydər Əliyev ideyalarından qaynaqlanır

Azərbycanımızın müstəqillik əldə etdiyi vaxtdan 26 ilə yaxın bir zaman keçir. Bu, tarix üçün bir göz qırpımı qədər vaxtdır. Ancaq, belə qısa zaman kəsiyində ölkəmiz siyasi və iqtisadi böhrandan, tənəzzül və xaosdan qurtularaq dünyanın sürətlə inkişaf edən dövlətləri sırasına yüksəlib.

Bu inkişafın təməlində doğum gününün 94-cü ildönümünü qururla qeyd etdiyimiz Heydər Əliyevin inkişaf strategiyası dayanır. Tarixdə baş vermiş çox saylı hadisələr göstərir ki, mustəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir. Xüsusən, vətənimiz Azərbaycan kimi təbii sərvətlərlə çox zəngin və coğrafi baxımdan əlverişli bir ərazidə yerləşən dövlətlərin mustəqilliyinə göz dikənlər, onu vassal vəziyyətinə salmaq istəyənlər daha çox olur. Müstəqil Azərbaycan dövlətinin sələfi Azərbaycan Xalq Cumhuriyyətinin (1918—1920) cəmi 23 ay yaşamasının səbəbi də məhz bu amillər oldu.

Bu günkü Azərbaycanımızın müstəqilliyinin qorunub saxlanması və bu müstəqilliyin əbədi olmasına görə biz Heydər Əliyev dühasına borcluyuq. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün bir istinad nöqtəsi seçdi. Bu da xalq idi.

Azərbaycanın hərtərəfli tərəqqi yolunun əsasını ulu öndər hələ ötən əsrin 70-ci illərində qoymuşdu. Həmin illərdə öz fəaliyyəti ilə xalq arasında qazandığı böyük nüfuza görə 90-cı illərin təlatümlü günlərində Heydər—Xalq, Xalq—Heydər tendemi yarandı və bu birlik Azərbaycanı bəlalardan qurtarıb inkişaf yoluna çıxartdı.

Ulu öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövrün tələblərinə uyğun zənginləşdirərək artıq sınanılmış Azərbaycan inkişaf modelini yaratmışdır. Bu uğurlu siyasət Azərbaycanın daha sürətli inkişafı üçün yeni imkanlar açır. Azərbaycan Respublikası Prezidentinin ulu öndərin ideyalarından qaynaqlanan strateji kursu Azərbaycan xalqının, dövlətinin mənafelərinə xidmət edən ali prinsipləri, normaları əhatə edir.

Dövlətimizin başçısının balanslaşdırılmış xarici siyasət xətti ölkəmizi regionun ən təhlükəsiz və lider dövlətinə çevirmişdir.

Bu barədə möhtərəm Prezidentimizin sözlərini xatırlayaq: «Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların fəal üzvüdür və bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bütün bunlar Heydər Əliyevin xidmətidir».

(Ardı 6-cı səhifədə).